**20 oktyabr "Ümumdünya statistika günü"**

**Nəsimi rayonunda qeyd edildi**

15 oktyabr 2015-ci ildə Nəsimi Rayon Statistika şöbəsinin təşəbbüsü ilə rayonda 20 oktyabr Ümumdünya Statistika Gününə həsr edilmiş tədbir keçirilmişdir. Tədbirdə Rayon İcra Hakimiyyəti aparatının, idarə, müəssisə və təşkilatların nümayəndələri, rəsmi statistika məlumatlarının istifadəçiləri və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.



Nəsimi Rayon Statistika şöbəsinin rəisi Şahverdi Şahverdiyev çıxış edərək bildirmişdir ki, Birləşmiş Millətlər Assambleyası 2010-cu il oktyabr ayının 20-ni Ümumdünya Statistika Günü elan edilib və onun "Rəsmi statistikanın bir çox nailiyyətlərinin bayram edilməsi" mövzusu üzrə keçirilməsi qərara alınıb. Qəbul olunmuş qətnamədə deyilir ki, Ümumdünya Statistika Günü oktyabrın 20-də beş ildən bir qeyd olunacaq. Birinci Statistika Günü 2010-cu ildə keçirilib. Bu gün bütün dünya ölkələrində, BMT və digər beynəlxalq təşkilatlarda qeyd edilir. Azərbaycan statistikləri üçün bu günün əhəmiyyətli olması həm də ondan ibarətdir ki, 2015-ci ildə azərbaycanda statistikanın təşkilindən 169 il keçir və rəsmi statistikanın 95 yaşı tamam olur.

Sonra rəis müavini Lütvəli Zeynalov statistikanın tarixi, bu günü və gələcək inkişaf perspektivləri, sosial-iqtisadi siyasətin formalaşdırılmasında rolu ilə bağlı məlumatların ictimaiyyətə dolğun şəkildə çatdırılmasına dair geniş məlumat vermişdir. Həmçinin online real-vaxt rejimində hesabat göstəricilərinin ötürülməsi, cari ilin yanvar-sentyabr aylarında şöbənin bu və digər fəaliyyətinə dair tədbir iştirakçılarına məlumat verilmiş, onları maraqlandıran suallar ətrafında müzakirələr aparılmışdır.



Sonra "Respublika" qəzetinin müxbiri, Rauf İlyasoğlu statistikanın əhəmiyyəti və statistikanın cəmiyyətdə rolu haqqında çıxış etmişlər.

Sonda Nəsimi Rayon İcra Hakimiyyətinin nümayəndəsi - Ekologiya məsələləri üzrə aparıcı məsləhətçi Kamal Rüstəmov çıxış edərək, statistikanın bu gün əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün vacib qərarların qəbul edilməsinin zəruriliyindən danışmış və 20 oktyabr Ümumdünya Statistika Günü münasibəti ilə statistika işçilərini təbrik etmişdir.